# HEYDƏR ƏLİYEVİN TRT-YƏ BİR MÜSAHİBƏSİ HAQQINDA

**Arzu İsayeva**

*BDU, Multimedia və elektron kommunikasiya kafedrası müəllimə,*
*filologiya üzrə fəlsəfə doktoru*
*arzu. ahmadova@mail. ru*
*arzu. isayeva. jur@gmail. com*
*Orchid:0000-0002-6032-3659*

**Xülasə**

*Təqdim olunmuş məqalədə xalqımızın Ulu öndəri, görkəmli dövlət xadimi və müasir Azərbaycanın qurucusu olan Heydər Əliyevin qardaş Türkiyənin TRT-1 kanalına verdiyi bir müsahibə haqqında söhbət açılır. Müəllif "Dünya düşüncələri Atatürkün gözü ilə" adlanan verilişdə efirə getmiş həmin müsahibəni müxtəlif rakurslardan təhlil edərək H. Əliyevin müasir Türkiyə və onun qurucusu haqqında mülahizələrini elmi baxımdan ümumiləşdirir. Məqalə müəllifinin fikrincə, Türkiyədə tanınmış bilim adamı sayılan professor Özer Özankayanın apardığı həmin müsahibədə H. Əliyevin səsləndirdiyi fikirlər ictimai elm sahələrinin mütəxəssislərinin iştirakı ilə elmi baxımdan ümumiləşdirilməli və ərtaflı təhlil olunmalıdır.*

*Atatürk kimi parlaq tarixi şəxsiyyətə həmişə yüksək qiymət vermiş H. Əliyevin bu verilişdə dedikləri ona görə qiymətlidir ki, o, təxminən eyni taleyi yaşamış müsəlman ölkələri haqqında danışmışdır. Digər tərəfdən H. Əliyev özü də tarixi yaradan bir siyasi xadim kimi elə problemlər üzərində dayanmışdır ki, onlar bugünkü sosial-siyasi, ideoloji dairələrdə olduğu kimi, elmi-türkoloji mühitdə də diqqət mərkəzindədir. Xüsusən mürəkkəb tarixi şəraitdə Atatürkün yeni dövlət quruculuğu sahəsindəki möhtəşəm xidmətlərinin dəyərləndirilməsi təbii ki, yalnız Türkiyə üçün deyil, bütün türk dünyası üçün böyük əhəmiyyət kəsb edir. Ona görə də bu məsələyə böyük müdrikliklə yanaşan Heydər Əliyevin adıçəkilən verilişdə Türkiyə Cümhuriyyətinin yaranmasında Atatürkün rolunu yüksək qiymətləndirmiş, onun əvəzsiz xidmətlərinin nədən ibarət olduğunu müxtəlif münasibətlərlə qeyd etmişdir.*

*Məqalədə göstərilir ki, xalqımızın ümummilli lideri H. Əliyev də özünün çoxşaxəli fəaliyyəti ilə Azərbaycanı sosial-iqtisadi cəhətdən möhkəmlənməsi, onun mədəni tərəqqisi və dünyada tanıdılması üçün çox böyük işlər görmüşdür. Buna görə də 2023-cü ilin "Heydər Əliyev" ili elan olunması xüsusən gənc nəslə dünya şöhrətli siyasi xadimin ibrətamiz ömür yolunu, onun yaratdığı dövlətçilik ənənələrini öyrənmək imkanıvermişdir.*

***Açar sözlər:*** *azadlıq, cümhuriyyət, demokratiya, dövlətçilik, ideologiya, parlament*

Azərbaycanın siyasi taleyinə yazılmış tarixi mərhələ etibarilə XX əsrin son 30 ili görkəmli dövlət xadimi və müasir Azərbaycanın qurucusu olan Heydər Əliyevin adı ilə bağlıdır. Çağdaş tariximizin ən parlaq səhifəsinə çevrilmiş bu illərdə xalqımızın ümummilli lideri H. Əliyev özünün çoxşaxəli fəaliyyəti ilə Azərbaycanı sosial-iqtisadi cəhətdən möhkəmlənməsi, onun mədəni tərəqqisi və dünyada tanıdılması üçün çox böyük işlər görmüşdür. Buna görə də 2023-cü ilin "Heydər Əliyev" ili elan olunması Azərbaycan xalqının ümummilli liderinin zəngin siyasi-mənəvi irsinin öyrənilməsi və təbliğinə xüsusi miqyas vermiş oldu.





Xüsusən gənc nəsil dünya şöhrətli siyasi xadim olan H. Əliyevin ibrətamiz ömür yolunu, onun siyasi təcrübəsini, yaratdığı idarəçilik və dövlətçilik ənənələrini öyrənmək imkanı qazanmışdır.

Hələ sovet idarəçiliyi dövründə - 14 iyul 1969-cu ildə H. Əliyevin Azərbaycan rəhbərliyinə gəlişi, bütövlükdə ölkəmizin müasir tarixinə köklü sosial dəyişikliklər, ümumi yüksəliş və inkişaf illərinə keçid mərhələsinin başlanğıcı kimi daxil olmuşdur. O dövrə qədər iqtisadi tənəzzül və dolğunluq mənghənəsində boğulan, tarixi tərəqqi prosesindən yetərincə faydalanmaq imkanından məhrum olan Azərbaycanda milli özünüdərk, özünüifadə konsepsiyasının seçilməsi ölkəmiz qarşısında yeni üfiqlər açdı. Həmin dövrdən başlayaraq respublikamızda müxtəlif sahələrdə həyata keçirilən nəhəng quruculuq işləri gələcək müstəqil Azərbaycan dövlətinin yaranması üçün əlverişli iqtisadi-siyasi zəmin, mənəvi-psixoloji mühit hazırladı (3, s. 581). Bu mənada inamla demək olar ki, Ulu öndər H. Əliyev müasir müstəqil Azərbaycanın sosial-iqtisadi əsaslarının, xüsusən sənaye-nəqliyyat infrastrukturunun yaradılmasında böyük rol oynamışdır.

Son dövrdə çap olunmuş mətbuat və nəşriyyat məhsullarının təhlili göstərir ki, H. Əliyevin çoxşaxəli həyatı və yaradıcılığı haqqında xeyli tədqiqatlar aparılmış, haqqında bir-birindən maraqlı kitablar və məqalələr yazılmışdır. Bu materialların içərisində bir sıra mövzularla yanaşı, Ulu öndərin siyasi proseslərə, tarixi hadisələrə və tarixi şəxsiyyətlərə münasibəti ayrıca yer tutur (1;2;6). Artıq özü də həmin tarixi şəxsiyyətlərin sırasında yer almış H. Əliyevin tarixi şəxsiyyətlərə zamanın kontestində yanaşması bu istiqamətdə aparılan tədqiqatlar üçün bir növ metodloji baza rolunu oynayır. Bu fikirlərin tarixiliyini və elmiliyini sübut etmək üçün Ulu öndərin Türkiyə Cümhuriyyətinin qurucusu, qazi M. K. Atatürkə münasibəti çox ibrətamizdir.

Atatürk kimi parlaq tarixi şəxsiyyətə həmişə yüksək qiymət vermiş H. Əliyevin bu məsələdə fikirləri onun vaxtilə qardaş Türkiyənin TRT-1 kanalına verdiyi bir müsahibədə öz parlaq əksini tapmışdır. Populyar bitr telekanalın bütün dünyaya yaydığı «Dünya düşüncələri Atatürkün gözü ilə» (6 aprel 1999) verilişində H. Əliyevin iştirakı və verdiyi olduqca maraqlı müsahibə ciddi ictimai rezonansa səbəb olmuş, xüsusilə şərqşünasların, mütəxəssis-türkoloqların, siyasətçilərin diqqətini cəlb etmişdir. Türkiyədə tanınmış bilim adamı sayılan professor Özer Özankayanın apardığı həmin verilişə baxanlar adıçəkilən müsahibədə irəli sürülmüş maraqlı fikirlərin qlobal ideyaların, heç şübhəsiz, daha geniş, hərtərəfli, ictimai elmlərin müxtəlif sahələrindən olan mütəxəssislərin iştirakı ilə şərhinə, elmi interpretasiyasına ehtiyac olduğunu hiss etməmiş deyillər (4).

Professor Ö. Özankayanın apardığı maraqlı müsahibədə biri digəri ilə məntiqi şəkildə bağlı olan bir sıra məsələlər öz əksini tapmışdır. Həm də elə problemlər üzərində dayanılmışdır ki, onlar bugünkü sosial-siyasi, ideoloji dairələrdə olduğu kimi, elmi-türkoloji mühitdə də diqqət mərkəzindədir. Həmin ciddi problemlərdən biri Osmanlı imperiyasının xarabalıqları üzərində yeni və müasir Türkiyə Cümhuriyyətinin yaranmasında Mustafa Kamal Atatürkün rolu məsələsidir. Bu problem ona görə aktualdır ki, hazırda müasir Türkiyədə elə

sosial-siyasi qruplar, cəmiyyətdə müəyyən nüfuzu olan elə ideoloqlar, ictimai xadimlər vardır ki, Türkiyə Cümhuriyyətinin yaradıcısının gördüyü işin dəyərini azaltmağa çalışırlar. Xüsusilə sovet şinelindən çıxmış türk respublikalarının azadlıq, müstəqillik yolunu seçib Türkiyənin tarixi təcrübəsinə marağın artması kontekstində bu məsələ ayrıca aktuallıq kəsb edir. Məhz bu baxımdan mürəkkəb tarixi şəraitdə Atatürkün yeni dövlət quruculuğu sahəsindəki möhtəşəm xidmətlərinin dəyərləndirilməsi təbii ki, yalnız Türkiyə üçün deyil, bütün türk dünyası üçün böyük əhəmiyyət kəsb edir. Ona görə də bu məsələyə böyük müdrikliklə yanaşan Heydər Əliyevin adıçəkilən verilişdə Türkiyə Cümhuriyyətinin yaranmasında Atatürkün rolunu yüksək qiymətləndirmiş, onun əvəzsiz xidmətlərinin nədən ibarət olduğunu müxtəlif münasibətlərlə qeyd etmişdir (3, s. 582-583).

Azərbaycan dövlət başçısı H. Əliyev sözügedən müsahibədə Türkiyə Cümhuriyyətinin yaradıcısının dolğun siyasi portretini vermiş, Atatürkün bu sahədəki xidmətlərinin aydın və obyektiv mənzərəsini canlandırmışdır. Verilişin aparıcısı professor Ö. Özankayanın "... bəllidir ki, Mustafa Kamal Atatürkün ölümündən 60 il keçdiyi halda, millətimiz bu gün də onu ehtiramla yad edir, ona ilham qaynağı kimi baxır. Baxmayaraq ki, onunla eyni dövrdə, XX yüzillikdə yaşayan Lenin kimi başqa şəxsiyyətlər də vardır. Onlarla müqayisədə Mustafa Kamal Atatürkün bu daimi dəyərini necə izah edərdiniz və bizə bu barədə nə deyə bilərdiniz?» sualına cavab verərkən Azərbaycan prezidenti, hər şeydən əvvəl, belə bir maraqlı fikir söyləyir ki, "Atatürk XX əsrin ən böyük şəxsiyyətlərindən biridir. Dövlət adamı kimi, siyasət adamı kimi və dövlət başçısı kimi. Ölümündən 60 il sonra da Türkiyə xalqı onun qoyduğu yol ilə gedir. Görün, yol nə qədər doğru-düzgün qurulub ki, o yoldan nə sağa, nə sola dönmək mümkün deyil Bu, Mustafa Kamal Atatürkün müdrikliyini göstərir, dahiliyini göstərir, öz xalqına böyük xidmətlərinin nəticəsini göstərir".

XX əsr tarix dərslikləri üçün maraqlı mənbə rolunu oynayacaq bu müsahibəsində H. Əliyev Türkiyənin istiqlal mübarizəsinə dərindən bələd olduğunu göstərir. O, özü də bir tədqiqatçı-alim kimi Osmanlı imperiyasının 700 il davam edən tarixini yada saldıqdan sonra bunları deyir: "Ancaq bütün imperiyalar kimi, Osmanlı imperatorluğu da dağılmağa məcbur edildi. ... Türkiyənin torpaqlarını əlinə keçirmək istəyən başqa ölkələr o vaxt çox idi. Yalnız Atatürkün iradəsi, ağlı, zəkası, qəhrəmanlığı, müdrikliyi ona imkan verdi ki, türk xalqının içindən çıxaraq Osmanlı İmperatorluğunun dağıntılarının, külünün yerində yeni bir çağdaş dövlət yaratsın. Onu da Mustafa Kamal Atatürk yaratdı" (4). Bizcə, mürəkkəb tarixi prosesi modelləşdirmək və onu kifayət qədər aydın şəkildə ifadə etmək baxımından H. Əliyevin bu hikmətli sözləri çox qiymətlidir.

Ulu öndər tarixi prosesləri qiymətləndirmək baxımından çox orijinal olan öz müsahibəsində mütəxəssislər arasında böyük maraq doğuracaq belə bir məsələyə diqqəti cəlb edir ki, Türkiyə Cümhuriyyəti türk cümhuriyyətləri (respublikaları) tarixində ilk cəhd, ilk təcrübə deyildi - bundan beş il əvvəl Azərbaycan Xalq Cümhuriyyəti yaranmışdı, 23 ay yaşamış həmin Cümhuriyyət müxtəlif səbəblər üzündən dağıldı ki, bu səbəblərdən biri də "yaranmış cümhuriyyətin





içində böyük bir liderin olmaması" idi. Azərbaycan prezidenti Azərbaycan Xalq Cümhuriyyətinin məhz ilk təcrübə olduğu (və ona görə Türkiyə Cümhuriyyətinin yaranmasında bu və ya digər dərəcədə təsir göstərdiyini) qeyd etməklə yanaşı, məsələnin tarixi mahiyyətini olduqca düzgün, eyni zamanda hamının anlayacağı müdrik bir sadəliklə izah etdi: "1923-cü ildə Türkiyə Cümhuriyyətinin yaranması bir də ona görə tarixi hadisədir ki, bu, müsəlman aləmində türk dünyasında ilk yaşayan cümhuriyyətdir". «Dünya düşüncələri «Atatürkün gözü ilə» verilişinin haqqında sözügedən buraxılışı barədə danışan professor N. Xudiyev göstərirdi ki, "Azərbaycan prezidentinin Mustafa Kamal Atatürkün qurduğu dövlətin dünyəviliyi barədə mülahizələri öz analitik dəqiqliyi ilə böyük maraq doğurur. Məlumdur ki, şərq ölkələrindən cümhuriyyət (respublika) quruluşunun tarixi qədimə gedir. Bu da şərqin özünəməxsus ictimai-siyasi, mənəvi həyat tərzi, əsrlər boyu müəyyənləşmiş birgə yaşayış ənənələri ilə bağlıdır" (4).

Mustafa Kamal Atatürkün seçdiyi tarixi yolu – demokratik prinsiplər əsasında parlamentli Cümhuriyyət qurulması yolunu önə çəkən H. Əliyev bu addımın Şərq dünyası və müsəlman aləmi üçün xüsusi əhəmiyyətini vurğulayır. Ulu öndər elə buradaca aparıcının "müsəlman dünyasında hökm sürən cəhalət şəraitində" demokratik rejim qurulmasının çətinlikləri barədə suala cavab verərək, müsəlman xalqlarının mənəvi-əxlaqi dünyagörüşünün, mədəniyyətinin milli xarakterinin formalaşmasında islam dininin roluna çox böyük qiymət verir. Qeyd edir ki, M. K. Atatürk milli dövlət qurucusu kimi dahiliyini bir də onda olduğunu göstərdi ki, Türkiyə Cümhuriyyətinin banisi islam dinindən imtina etmədən dünyəvi dövlət qurmağın təcrübəsini yaratdı. Bununla da dünyəviliyin islam dininə zidd olmadığını bütün dünyaya nümayiş etdirdi.

Azərbaycan dövlət başçısının müsahibəsində maraq doğuran cəhətlərdən biri o idi ki, prezident geniş məlumatına, dərin elmi-siyasi təfəkkürə, hadisələri ümumiləşdirməyə, dərhal ən doğru nəticə çıxarma qabiliyyətinə əsaslanaraq Türkiyə Cümhuriyyətinin tarixi ilə Azərbaycan Respublikasının müstəqil türk respublikalarının tarixi arasındakı paralelləri tamaşaçıların nəzərinə çatdırır, apardığı müqayisələrlə bir daha sübut edir, milli dövlət quruculuğunda dünyanın tarixi təcrübələrinə istinad olunması vacib şərt sayır. H. Əliyevin aşağıdakı sözləri ölkə başçısının dilindən Azərbaycanda müstəqil dövlət quruculuğu proqramı kimi səslənir: "Mən sizə deyə bilərəm ki, Azərbaycanın da Cümhuriyyəti dünyəvi cümhuriyyət olubdur. 1918-ci ildə də və indi -1991-ci ildə biz müstəqilliyimizi, əldə edəndən sonra da, biz ancaq dünyəvi bir cümhuriyyətik. Bizim Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlətdir".

TRT-nin adı çəkilən verilişində qadın azadlığı məsələsinə də toxunulur. Dünyəvi dövlətdə qadının rolu məsələsi ilə əlaqədar professor Ö. Özankayanın «Türkiyədə inqilabdan sonra cəmiyyət daxilində qadınlarla kişilər eyni hüquqa sahib oldular. İnqilabın bu töhvəsi barədə fikirlərinizi söylərsinizmi?» sualına Azərbaycan prezidenti olduqca müfəssəl cavab verir. Xüsusi intonasiya ilə qeyd edir ki, "Türkiyə cəmiyyətində qadın azadlığı məsələsinin həll olunması da Atatürkün xidmətlərindən biridir". Bu zaman yenə Azərbaycanın təcrübəsinə isti-

nad edən Ulu öndər göstərir ki, "biz azərbaycanlılar üçün bu barədə qeyri-adi bir şey yoxdur. Çünki Azərbaycanda sovet hakimiyyətinin nə qədər zərərli cəhətləri olubsa, o qədər də xeyirli cəhətləri olubdur. Azərbaycanda 1920-ci ildə bütün qadınlara tam azadlıq verildi"Əlbəttə, qadın azadlığı məsələsi, bəlkə də Qərbdə, yaxud hər hansı Qərbideoloqunun nöqteyi-nəzərində o qədər də böyük ideoloji əhəmiyyət kəsb etmir. Lakin Şərq üçün bu yalnız sosial-etnoqrafik bir problem deyil, kifayət qədər dərin kökləri olan mənəvi, mədəni və ideoloji bir məsələdir. Qadına münasibət, qadının cəmiyyətdə tutduğu yerə, oynadığı rola münasibət həmin cəmiyyətin dini, əxlaqi, mənəvi, dünyagörüşünə, birgəyaşayış normalarına olan münasibət deməkdir.

Verilişi diqqətlə izlədikcə bir məqam diqqəti çox cəlb edir ki, Azərbaycan prezidenti ilə müsahibə aparan professor Ö. Özankayan həm bir alim, həm də bir jurnalist kimi suallar, kifayət qədər professional şəkildə verir. O, müsəlman cümhuriyyəti quruculuğunda «qadın məsələsi» kimi incə bir məsələ barədə sual verəndən dərhal sonra ondan az incə, həssas olmayan daha bir məsələ barədə soruşur «Cənab prezident, Atatürkün iqtisadi siyasətinin üzərində dayanmaq istərdim. Bəllidir ki, Atatürk dövlətçilik siyasətibilə həm kapitalizmdə, həm də sosializmdə, yəni kollektivləşmədən bəhrələnərək onların əsasında yeni, üçüncü iqtisadi yol yaratmış oldu. Bu barədə nə deyə bilərsiniz?»

Konkret zaman çərçivəsində tarix və siyasətin sintezini gözəl bilən prezident H. Əliyev həmin suala cavab verərkən yalnız professor Ö. Özankayanı maraqlandıran məsələni konkret olaraq şərh etməklə kifayətlənməyərək Türkiyə tarixinin bir sıra ideoloji problemləri üzərində də dayanır. Daha sonra o, Atatürkün iqtisadi siyasətində kapitalist üsulu ilə sosialist üsulunun birləşdirilməsi prinsipindən danışaraq göstərir ki, bu günə qədər Türkiyənin iqtisadiyyatında həmin prinsip öz mövcudluğunu yanlış davam etdirməkdədir. Halbuki sovetlər birliyində sosialist-iqtisadi sistemin yanlış tətbiqi ucbatından nəticə etibarilə ölkənin və bütövlükdə sosializm sisteminin dağılmasına gətirib çıxartdı.

Adıçəkilən verilişdə H. Əliyev istiqlal mücahidi Atatürkün həyata keçirdiyi əlifba, yazı islahatı barədə də öz fikrini söyləyir. Həmin fikirlər ona görə maraqlıdır ki, prezident məsələyə yenə də geniş ümumtürkoloji planda yanaşaraq göstərir ki, «Atatürkün ərəb əlifbasından imtina edib latın əlifbasına keçməsi də türk xalqı üçün böyük bir nailiyyət oldu, xalqın gələcəyi, mədəniyyəti üçün böyük yollar açdı. Ancaq mən sizə bildirmək istəyirəm, hələ XIX əsrin 70-ci illərində Azərbaycanın böyük yazıçısı Mirzə Fətəli Axundov Azərbaycan xalqı üçün, türk xalqı üçün latın əlifbasına keçmək təşəbbüsünü irəli sürmüşdür». Azərbaycan prezidenti böyük Azərbaycan mütəfəkkiri, maarifçi demokrat Mirzə Fətəli Axundovun əlifba islahatı uğrunda ardıcıl mübarizəsinin tarixi əhəmiyyəti barədə bəhs etdikdən sonra sovet hakimiyyətinin ilk illərində Azərbaycanda latın əlifbasına keçidin artıq qarşısı alınmaz hadisə olduğunu, qeyd edərək 1926-cı ildə Bakıda keçirilən I türkoloji qurultay haqqında türk tamaşaçılarına ətraflı məlumat verir.

Dünya miqyaslı siyasi xadim olan Heydər Əliyev öz müsahibəsində Türkiyə Cümhuriyyəti tarixinin ən müxtəlif problemlərini, eləcə də həmin





cümhuriyyətin yaradıcısı M. K. Atatürkün mürəkkəb, eyni zamanda müzəffər ictimai-siyasi fəaliyyətini ümumtürk, ümumdünya prosesləri kontekstində dəyərləndirməklə, həm Türkiyə Cümhuriyyətinin, həm də onun banisinin miqyasca böyüklüyünü, dünyəviliyini tbir daha təsdiq edir (1:4:5). O, istiqlal savaşının qalibi "M. K. Atatürkün bu inqilablarının və qurduğu cümhuriyyətin təmsil etdiyi düşüncələrin Türkiyə üçün, islam dünyası üçün ən böyük mirası nədir?" sualına verdiyi cavabda həmin ideya-siyasi mövqedə dayanır. Qeyd edir ki, inqilabın ən böyük mirası Türkiyə Cümhuriyyətidir. Və Türkiyə indi Atatürkün işini davam etdirənlərin sayəsində müasir, güclü, qüdrətli bir dövlətə çevrilmişdir.

Müsahibəyə diqqətlə baxan hər bir tamaşaçı şüaraltı istər-istəməz bu qənaətə gəlir ki, H. Əliyev böyük tarixi şəxsiyyətdir və onunla Atatürk arasında hansısa paralellər mövcuddur. Əslində isə bu, bir həqiqətdir ki, Mustafa Kamal Atatürk Türkiyə Cümhuriyyətinin tarixinə həmin cümhuriyyətin qurucusu olaraq düşdüyü kimi Heydər Əliyev də müstəqil Azərbaycan Respublikasının tarixinə artıq onun yaradıcısı olaraq düşmüşdür. Müstəqil Türkiyə dövləti Mustafa Kamal Atatürkün əsəri olduğu kimi, qurulmaqda olan müstəqil Azərbaycan dövlətinin müəllifi də Heydər Əliyevdir.

Azərbaycan prezidentinin TRT-1 kanalında getmiş müsahibəsi bir daha göstərdi ki, H. Əliyev mükəmməl siyasi, ideoloji, elmi-nəzəri təfəkkürü ilə türk dünyasının, ümumən müasir dünyanın ən böyük siyasi xadimlərindən, nüfuzlu liderlərindən biridir. Digər tərəfdən Ulu öndər H. Əliyevin bu möhtəşəm müsahibəsinə baxdıqdan sonra istər-istəməz 44 günlük Qarabağ müharibəsi günlərində ölkə prezidenti, Ali Baş Komandan İlham Əliyevin 30-a yaxın xarici KİV-ə verdiyi müsahibə yada düşür və təkcə siyasi varislik haqqında yox, həm də elmi – intelektual varislik haqqında düşünməli olursan. Bu barədə danışan professor İradə Hüseynovanın yazdığı "İkinci Qarabağ müharibəsi dünya hərb tarixində müharibə texnikasında olan yeniliklərlə, müharibə aparmağın yeni nümunəsi ilə yadda qalmışdır" (2, s. 6).

Şübhəsiz ki, həmin müharibəni aparmağın yeni nümunəsi dedikdə, həm də hərbi hücum əməliyyatları ilə informasiya hücumunun sinxron şəkildə tətbiqi nəzərdə tutulur. Çünki hərb elmində bunların yaxşı əlaqələndirilməsi qələbənin zəhminə çevrilir. Heydər Əliyevin idarəçilik və dövlətçilik məktəbinin keçmiş prezident İlham Əliyev məhz ondan əxz etdiyi intelektual bacarıqları sayəsində Azərbaycan xalqının erməni işğalçıları üzərində parlaq qələbəsini təmin etməyə və 30 il işğal altında qalmış torpaqlarımızı düşməndən azad etməyə nail olmuşdur.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Hüseynova İ. Heydər Əliyev və Qafqazda sülh prosesi, Bakı, 2008
2. Hüseynova İ. İlham Əliyev və zəfər tariximizin şanlı səhifələri. Bakı, "Füyuzat", 2021
3. Xudiyev N. Radio, televiziya və ədəbi dil. Bakı, Azərnəşr, 2001
4. Xudiyev N. Heydər Əliyev-Zəmanəmizin Atatürkü // "Azərbaycan" qəzeti", 15 aprel 1999

5. Məmmədli A. Ermənilərin gerçək tarixi. Bakı, 2008
6. Milli maraqları layiqincə təmsil edən informasiya strategiyası // "Azərbaycan" qəzeti, 15 aprel 2021
7. Mustafa N. , Qurbanov A. , Əlili E. Erməni saxtakarlığı. Yalan üzərində qurulan tarix. Bakı, 2018

**Arzu Isayeva**

## About an interview of Heydar Aliyev with TRT

### Summary

*The presented article was about an interview given by Heydar Aliyev, the great leader of our nation, an outstanding statesman, and the founder of modern Azerbaijan, to the TRT-1 channel of brother Turkey. The author summarizes H. Aliyev's opinions about modern Turkey and its founder from a scientific point of view, analyzing the interview aired in the program called «Thoughts of the World Through the Eyes of Ataturk» from different perspectives. According to the author of the article, the opinions expressed by H. Aliyev in the interview conducted by Professor Özer Ozankaya, who is considered a well-known scientist in Turkey, should be summarized and analyzed from a scientific point of view with the participation of experts from social sciences.*

*H. Aliyev, who has always highly appreciated such a bright historical figure as Atatürk, said in this program, it is valuable because he talked about the Muslim countries that experienced the same fate. On the other hand, H. Aliyev himself, as a political figure who created history, focused on problems that are at the center of attention in today's socio-political and ideological circles, as well as in the scientific and Turkological environment. Of course, the evaluation of Atatürk's great services in the field of new state building is of great importance not only for Turkey but for the entire Turkic world, especially in complex historical conditions. Therefore, Heydar Aliyev, who approached this issue with great wisdom, in the aforementioned program, highly appreciated the role of Atatürk in the establishment of the Republic of Turkey and noted his invaluable services in various ways.*

*The article shows that the national leader of our people, H. Aliyev, with his multifaceted activities, has done a lot to strengthen Azerbaijan in terms of socio-economics, cultural progress, and its recognition in the world. Therefore, the declaration of 2023 as the year of «Heydar Aliyev» gave the young generation, especially, the opportunity to study the instructive life path of the world-famous political figure and the traditions of statehood created by him.*

***Keywords:*** *freedom, republic, democracy, statehood, ideology, parliament*

**Арзу Исаева**

## Интервью Гейдара Алиева телеканалу TRT

### Резюме

*Представленная статья посвящена интервью великого лидера нашего народа, выдающегося государственного деятеля, основа-теля современного Азербайджана Гейдара Алиева телеканалу TRT-1 братской Турции. Автор с научной точки зрения обобщает мне-ния Г. Алиева о современной Турции и ее основателе, анализируя с разных точек зрения интервью, вышедшее в эфире передачи «Мысли о мире глазами Ататюрка». По мнению автора статьи, мне-ния, высказанные Г. Алиевым в интервью профессору Озеру Озан-кая, считающемуся известным в Турции ученым, должны быть обобщены и проанализированы с научной точки зрения при уча-стии специалисты социальных наук.*

*Г. Алиев, всегда высоко ценивший такую яркую историческую личность, как Ататюрк, отметил в этой программе, что она ценна тем, что он рассказал о мусульманских странах, переживших такую же участь. С другой стороны, сам Г. Алиев как политический дея-тель, творивший историю, сосредоточил внимание на проблемах, которые находятся в центре внимания сегодня в общественно-политических и идеологических кругах, а также в научной и тюркологической среде. Конечно, оценка великих заслуг Ататюрка в области нового государственного строительства имеет большое значение не только для Турции, но и для всего тюркского мира, особенно в сложных исторических условиях. Поэтому Гейдар Али-ев, который с большой мудростью подошел к этому вопросу, в вы-шеупомянутой программе высоко оценил роль Ататюрка в ста-новлении Турецкой Республики и отметил его неоценимые заслуги в различных сферах.*

*В статье показано, что общенациональный лидер нашего народа Г. Алиев своей многогранной деятельностью сделал многое для укрепления Азербайджана в плане социально-экономического развития, культурного прогресса, его признания в мире. Поэтому объявление 2023 года годом «Гейдара Алиева» дало молодому по-колению, прежде всего, возможность изучить поучительный жиз-ненный путь всемирно известного политического деятеля и со-зданные им традиции государственности.*

***Ключевые слова:*** *свобода, республика, демократия, госу-дарственность, идеология, парламент.*



*Müasir Azərbaycan mediası – peşəkarlıq standartları və yeni trendlər.* Respublika elmi-praktik konfransı